# Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir

# Yeremya, Göz yaşları Adamı



Müəllif: Edward Hughes
İllüstrasiya edən: Jonathan Hay
Tərcümə edən: Günay Əsədova
Uyğunlaşdıran: Mary-Anne S.

60 Hekayənin 28 -cisi

**www.M1914.org**

***Bible for Children,*** *PO Box 3, Winnipeg, MB R3C 2G1 Canada*

Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Azərbaycan

Azerbaijan

Yeremya Yəhuda padşahlığında dindar ailədə dünyaya gəlmişdi. Onun atası Xilqiya kahin idi. Ailə Yerusəlimə yaxın olan Anatot şəhərində yaşayırdı. Bəlkə Yeremyanın valideynləri onun da kahin olacağını fikirləşirdilər. Amma Allahın başqa planları var idi.



1



Yeremya doğulanda Allahın xalqı Allahın Sözünə uyğun yaşamırdı. Az qala hər bir kəs, padşahdan tutmuş ən kasıb işçiyə qədər, hamı yalançı allahlara ibadət edirdi, hətta Allahın Öz müqəddəs məbədində də!

2


Yeremya gənc oğlan olanda Allah onunla danışdı. Allah Yeremyaya dedi:
“Mən sənə ananın bətnində surət verməzdən əvvəl səni tanıdım və Mənim üçün danışacağını planlaşdırdım”.
3


Allahın çağırışı Yeremyanı qorxutdu. “Ah, ya Rəbb Allah! Axı mənim danışıq qabiliyyətim yoxdur, çünki hələ uşağam”. O, uşaq deyildi, onun iyirmi yaşı var idi. Ancaq Yeremya ətrafında olan pisliklərə görə Allah üçün danışa bilmə qabiliyyətinə malik olduğunu fikirləşmirdi.
4


“Qorxma”, Allah Yeremyanı inandırdı. “Mən səni kimin yanına göndərsəm, ora get, sənə nə əmr etsəm, onu söylə.
Çünki səni qurtarmaq üçün Mən səninlə olacağam”. Sonra Allah xüsusi bir şey etdi. O, Yeremyanın ağzına toxundu.
5


Allah Yeremyaya güc, cəsarət və müdriklik verdi. O, xalqa Allahın onları sevdiyini və onlara kömək etmək istədiyini xatırladaraq, cəsarətlə danışdı. Ancaq heç kim ona qulaq asmadı. Hətta padşah da.
6


Hətta kahinlər də qəzəbləndilər və onun Allah haqqında bir də danışmamasını dedilər. Orada həmçinin Yeremyanın həqiqəti demədiyini deyən yalançı peyğəmbərlər də var idi.
7


Yeremya xalqa xatırlatdı ki, təqribən yüz il əvvəl İsrailin şimal padşahlığı Allahı tərk etmişdi. Onların düşmənləri olan Aşşurlar onları məğlub edi və bütün İsraillilləri uzaq ölkələrə göndərdi.
8


Cənub padşahlıqdakı Yəhuda xalqı Allahı tərk etmişdi. Düşmən orudları addımlamağa artıq hazır idi! Allah Öz xalqının məğlub olmasına və sürgün edilməsinə izin verəcəkmi?
9


Xalq öz bütlərinə güvənirdi. Bütlər onları düşmənlərindən xilas edə bilərdimi? Xeyr! Yalnız Allah onları xilas edə bilərdi. Camaat Yeremyaya qəzəbləndi, onlar onu öldürmək üçün sui-qəsd hazırladı. Amma Allah Öz qulunu qorudu.
10


Nəhayət, Allah Yeremyanı yəqin ki, təəccübləndirəcək bir şey dedi. Allah dedi: “Bu xalq üçün dua etmə. Onlar kömək üçün Mənə dua edəndə Mən onları eşitməyəcəm”.
11


Yeremya Babil ordusu ilə döyüşdə məğlub olacağı haqda padşaha xəbərdarlıq etdi. Padşah qəzəbləndi və Yeremyanı zindana atdı. Hətta zindanda belə, Yeremya təbliğ etməyə və Allaha güvənməyə davam etdi.
12


Yeremya zindandan çıxandan sonra o, yenidən padşaha və xalqa Allaha tərəf dönmələri və Ona etibar etmələri haqda təbliğ etdi. Bu dəfə padşah Yeremyanı dərin palçıqlı zindana atdı.
13


Ancaq Allah padşahın ürəyində işləyirdi. O, gizlicə Yeremyanı xilas etdi və Allahın padşahdan nə etmək istədiyini soruşdu. “Sürgünlüyə get və Allah deyir ki, sən yaşayacaqsan” cavab belə idi.
14

Babil ordusu Yerusəlimi və bütün Yəhudanı zəbt etdi. Onlar divarları və bütün binaları dağıtdılar və hər şeyi yandırdılar. Allah Öz xalqının yetmiş illik əsirliyə gedəcəyini və sonra onları Vəd olunmuş Torpağa geri gətirəcəyini dedi.





Yeremya, Göz yaşları Adamı

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Yeremya

"Kəlamının açıqlanması nur saçır".
Məzmur 119:130

**Allah, Onun** günah adlandırdığı pis şeyləri etdiyimizi **bilir**. Günahın cəzası ölümdür.

**Allah bizi o qədər çox sevir** ki, O Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və bizim günahlarımıza görə cəzanı ödəmək üçün gəldi. **İsa dirildi** və Göylərə getdi! İndi Allah bizim günahlarımızı bağışlaya bilər.

**Əgər sən öz günahlarından dönmək istəyirsənsə**, bunu Allaha de: Əziz Allah, mən inanıram ki, İsa mənim üçün öldü və indi yenidən yaşayır. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, indi mən yeni həyata malik ola və sonra Səninlə əbədiyyən yaşaya bilim. Sənin üçün və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin. Yəhya 3:16

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!**